AFFA

# AZƏRBAYCAN V MACARISTAN

MAGYAR LABDARÚGÓ SZÖVETSÉG 1901

10.06.2025 | 20:00
Liv Bona Dea Arena

# YOLDAŞLIQ OYUNU

# PROQRAM

SOCAR
Bank Respublika
silkway west airlines
XIRDALAN 0.0
PAŞA Sığorta
AZAL
AQUAVITA
MƏLHƏM BEYNƏLXALQ HOSPİTAL
misli
liv BONA DEA
MARIO RUSSO
DANILOV BAKU

SOCAR

# BU BURAXILIŞDA

**4** MACARISTAN MİLLİ KOMANDASI





**21** ARALARINDAKI OYUNLAR HAQQINDA MƏLUMAT

**32** AZƏRBAYCAN MİLLİ KOMANDASI



**6** MACARISTAN MİLLİ KOMANDASININ BAŞ MƏŞQÇİSİ

Marko Rossi 2000-ci ildə futbolçu karyerasını bitirib və dörd il sonra məşqçilik ...

**10** MACARISTANDA FUTBOLUN YARANDIĞI İL

Avstriya və Macarıstan ikili monarxiya olan Avstriya-Macarıstan İmperiyasının ...

**26** MARK TAMAŞIN MÜSAHİBƏSİ

"Azərbaycan millisində futbolçular bir-birilərini daha yaxşı tanıyırlar"

**28** STADİON HAQQINDA

Millimizin Macarıstan yığması ilə qarşılaşacağı "Liv Bona Dea Arena" Bakının ...

**40** AZƏRBAYCANDA FUTBOLUN YARANDIĞI İL

Azərbaycanda ilk futbol komandaları 1905-ci ildə ...

**Şəkillər:** AFFA-nın fotobazası, "Google Photos", gettyimages.com

## BİZ **BİRLİKDƏ** GÜCLÜYÜK!

AZƏRBAYCAN, BAKI AZ 1025,
8 NOYABR PROSPEKTI, 163

Tel: +99412 404 2777
Faks: +99412 404 2772

info@affa.az
www.affa.az

# Hungary national team



# MACARISTAN MİLLİ KOMANDASI



AFFA



# Marko Rossi

Marko Rossi 2000-ci ildə futbolçu karyerasını bitirib və dörd il sonra məşqçilik fəaliyyətinə başlayıb. İlk illərində İtaliyanın müxtəlif klublarında çalışıb. Onun Macarıstan futbolu ilə tanışlığı 2012-ci ilə təsadüf edib. Həmin il "Honved"in baş məşqçisi təyin olunan Rossi iki fərqli dönəmdə bu komandaya rəhbərlik edib. Baş məşqçi qismində ən böyük nailiyyətlərindən birini də məhz "Honved"də qazanıb. Belə ki, onun rəhbərliyi altında Budapeşt təmsilçisi 2016/2017-ci illər mövsümündə Macarıstan çempionluğuna yiyələnib. Lakin maliyyə məsələlərində fikir ayrılığı Rossinin komanda ilə vidalaşmasına səbəb olub. O, növbəti mövsüm "Dunayska Streda" ilə Slovakiya çempionatının bürünc medallarını qazanıb.

Rossi 2018-ci ilin iyunundan bəri Macarıstan millisini çalışdırır. İtaliyalı mütəxəssis macarları iki dəfə böyük turnirə - AVRO-2020 və AVRO-2024-ə aparıb. AVRO-2020-nin seçmə mərhələsində rəqiblər arasında Azərbaycan millisi də olub. Macarıstan yığması həmin qrupda 4-cü yeri tutsa da, pley-offda Bolqarıstan və İslandiyanı məğlub edərək, final mərhəsinə yollanıb. AVRO-2024-ə isə seçmə mərhələdə qrupu birinci pillədə başa vuraraq vəsiqə əldə edib. Lakin komanda hər iki qitə birinciliyində qrup səddini aşa bilməyib.

Rossi Macarıstanda 3 dəfə - 2020, 2022 və 2023-cü illərdə "İlin məşqçisi" mükafatına layiq görülüb.

**3 dəfə Macarıstanda "İlin məşqçisi" mükafatına layiq görülüb**



OYUN PROQRAMI
MATCHDAY PROGRAMME

# MARCO ROSSI

Marco Rossi retired his player career in 2000 and started coaching four years later. In his early coaching years, he managed various clubs throughout Italy.

In 2012 Rossi was appointed as a head coach of Budapest Honved FC and served in two spells. One of his greatest achievements as a head coach was with Budapest Honved FC. As a coach, Rossi won the 2016-2017 Hungarian Football League title with Budapest Honved FC. The following season, Rossi finished third in the Slovak First Football League with DAC 1904. Marco Rossi was announced as the new manager of the national team of Hungary in June 2018. The Italian specialist has also coached the Hungarian A-team in the major tournaments – UEFA EURO 2020 and UEFA EURO 2024. Azerbaijan national team was among the opponents of the Hungarians in the UEFA EURO 2020 qualifying round. Although Hungary finished fourth in their group, Rossi's team could beat Bulgaria and Iceland in the play-offs to reach the finals. Hungary also qualified for the UEFA EURO 2024 by finishing first in their group. However, the team failed to overcome the group stage in both continental championships. Rossi was awarded the Coach of the Year in Hungary three times - in 2020, 2022 and 2023.





**3 TIMES**
**the Coach of the Year in Hungary**

# MACARISTAN MİLLİSİNİN HEYƏTİ

## QAPIÇILAR/GOALKEEPERS

*Deneş Dibuş*
*Peter Sappanoş*
*Balaj Tot*

## MÜDAFİƏÇİLƏR/DEFENDERS

*Botond Baloq*
*Marton Dardai*
*Attila Moçi*
*Villi Orban*
*Qabor Salai*

## YARIMMÜDAFİƏÇİLƏR/MIDFIELDERS

*Bendequz Bolla*
*Aron Çonqvai*
*Bense Dardai*
*Miloş Kerkez*
*Jolt Naqi*
*Loik Neqo*
*Tamaş Nikitşer*
*Attila Osvat*
*Andras Şefer*
*Kallum Staylz*
*Aleks Tot*
*Milan Vitaliş*

## HÜCUMÇULAR/FORWARDS

*Kevin Çobot*
*Daniel Qazdaq*
*Roland Sallai*
*Dominik Soboslai*
*Barnabas Varqa*



**Hungary national team squad**


QIZIL KİMİ KREDİT
₼ -dək
50 000
LOMBARD KREDİTİ
ƏFD min. 19,2 %
max. 33,4 %
Bank
Respublika
Bakı ş. Xaqani 21 / Bank 15.12.1992 tarixində Azərbaycan Milli Bankı tərəfindən
verilmiş 83 saylı lisenziya əsasında fəaliyyət göstərir

# MACARISTANDA FUTBOLUN YARANDIĞI İL

## *History of football in Hungary*



Avstriya və Macarıstan ikili monarxiya olan Avstriya-Macarıstan İmperiyasının tərkibində olsalar da, XX əsrin əvvəllərində ayrı-ayrı futbol assosiasiyaları və komandaları formalaşdırıblar. Macarıstan millisi ilk rəsmi oyununu 1902-ci ildə keçirib. Yığmanın qatıldığı birinci beynəlxalq turnir 1912-ci ildə İsveçin paytaxtı Stokholmda keçirilən Yay Olimpiya Oyunları olub. Macarlar həmin Olimpiadaya yollanmaq üçün hətta ianə toplamaq məcburiyyətində qalıblar.

Sürətlə inkişaf edən Macarıstan futboluna Birinci Dünya Müharibəsi ağır zərbə vurub. Müharibə dövründə komanda yalnız Avstriya yığması ilə yoldaşlıq görüşləri keçirməklə kifayətlənib. 1919-cu ildə Birləşmiş Krallıq ölkələri Macarıstan da daxil olmaqla bir neçə federasiyanın FIFA-dan çıxarılmasını tələb edib. Tələb qəbul olunmayınca İngiltərə, Şotlandiya, Uels və İrlandiya etiraz əlaməti olaraq, FIFA-nın tərkibindən ayrıldıqlarını açıqlayıblar.

Müharibədən sonra isə Macarıstanda futbol, xüsusən də, milli səviyyəsində inkişafını davam etdirib.

Although Austria and Hungary were part of the dual monarchy of the Austro-Hungarian Empire, the countries formed separate football associations and national teams in the early 20th century. The Hungarian national team played the first official match in 1902. The Hungary A-team has played in numerous international tournaments, including the inaugural football tournament in the 1912 Summer Olympics in Stockholm, Sweden. The Hungarians even had to raise funds to go to those Olympics.

The rapidly developing Hungarian football was severely affected by World War I. During the World War I, the team was limited to playing friendly matches against Austria. In 1919, the British associations (representing England, Ireland, Scotland and Wales) demanded the expulsion of several associations, including Hungary, from FIFA and in 1920 the British associations resigned their FIFA memberships after failing to persuade other members.

After the World War I, football in Hungary continued to develop, especially the national team.



# 1950



Macarıstan Futbol Assosiasiyası (MLSZ) 1993-cü ildə Qızıl Komandanın şərəfinə 25 noyabrı Macarıstan Futbolu Günü elan etdi.

Hungarian Football Association (MLSZ) declared November 25 the Day of the Hungarian Football in honor of the match and the Golden Team in 1993.

# MACARISTAN MİLLİSİNİN REKORDÇULARI

## Player records of the Hungary national team

Macarıstan yığmasının ilk oyunu 1902-ci il oktyabrın 12-də Avstriya seçməsinə qarşı olub. Vyanada keçirilən görüşdə meydan sahibləri 5:0 hesabı ilə qalib gəliblər. Macarıstan millisinin ən böyükhesablı qələbəsi 12 top fərqi ilə olub. Komanda üç dəfə bunu bacarıb. 1912-ci ildə Rusiya, 1950-ci ildə Albaniyanın qapısından 12 cavabsız top keçirən macarlar 1927-ci ildə Fransa yığmasını 13:1 hesabı ilə məğlub ediblər.

Macarıstan millisi tarixinin ən böyükhesablı məğlubiyyətini isə Böyük Britaniya (1912), Almaniya (1941) və Niderlanddan (2013) alıb. Komanda ilk iki rəqibinə 0:7, sonuncuya isə 1:8 hesabı ilə uduzub.

The Hungarian national team played their first official match against Austria on October 12, 1902 and the home team won the match in Vienna 5-0. The Hungarian national team's biggest victory was with a difference of 12 goals. The team has achieved this feat three times. The Hungarians scored 12 unanswered goals against Russia in 1912 and Albania in 1950, defeated France 13-1 in 1927.

The worst defeat in the history of Hungary was against Great Britain (1912), Germany (1941) and the Netherlands (2013). The team lost to the first two opponents 0-7 and to the last one 1-8.




Niderland VS
Macarıstan
11.10.2013, DÇ-2014

Netherlands VS
Hungary
11.10.2013, WC-2014

## ƏN ÇOX OYUN KEÇİRƏN 5 FUTBOLÇU / *5 MOST APPEARANCES*



**BALAŞ DZUDZAK**

109 oyun/games
2007-2022



**QABOR KİRALİ**

108 oyun/games
1998-2016



**JOZEF BOZİK**

101 oyun/games
1947-1962



**ZOLTAN GERA**

97 oyun/games
2002-2017



**ROLAND YUHAŞ**

95 oyun/games
2004-2016

## ƏN ÇOX QOL VURAN 5 FUTBOLÇU / *5 TOP SCORERS*



**FERENTS PUŞKAŞ**

84 qol/goals
1945–1956



**SANDOR KOÇSIŞ**

75 qol/goals
1948–1956



**İMRE ŞLOSSER**

59 qol/goals
1906–1927



**LAYOŞ TIXI**

51 qol/goals
1955–1971



**QYORQI ŞAROŞI**

42 qol/goals
1931–1943


AFFA
MARIO RUSSO
Tailored for
Excellence
Official sponsor of the A National Team of Azerbaijan

# MACARISTAN MİLLİSİNİN BEYNƏLXALQ YARIŞLARDA UĞURLARI

## SUCCESSES OF THE HUNGARIAN NATIONAL TEAM DURING THE INTERNATIONAL COMPETITIONS




Macarıstan futbolu zəngin tarixə malikdir. Xüsusən də, milli komandanın kifayət qədər uğurları olub. Adıçəkilən yığma üççat olimpiya çempionudur. Belə ki, Macarıstan millisi Helsinki-1952, Tokio–1964 və Meksika–1968 Yay Olimpiya Oyunlarının qızıl medallarını qazanıb. 1972-ci ildə Münhendə təşkil olunan Olimpiadada isə gümüş mükafata yiyələnib.

Macarıstan millisinin dünya və Avropa çempionatlarında da diqqətçəkən uğurları olub. 1934-cü ildə İtaliyada baş tutan sayca ikinci dünya çempionatında debüt edən komanda artıq dörd il sonrakı mundialın mükafatçıları sırasına düşüb. Komanda Fransadakı DÇ-1938-də finala qədər irəliləsə də, həlledici matçda İtaliyaya uduzub. Macarlar İsveçrədə təşkil olunan DÇ-1954-ün gümüş medalçısıdır. Bu dəfə dünya çempionluğuna Qərbi Almaniya imkan verməyib.

O ki qaldı Avropa çempionatına, 1964 və 1972-ci illərdəki qitə birinciliyi yaddaqalan olub. Komandanın İspaniyadakı AVRO-1964-də önü yarımfinalda meydan sahibləri tərəfindən kəsilib. Üçüncü yer uğrunda matçda Danimarkadan güclü olan Macarıstan yığması bürünc medala yiyələnib. Belçikada keçirilən AVRO-1972-nin yarımfinalında isə macarlar SSRİ-yə məğlub olublar. Azərbaycanın əfsanəvi futbolçusu Anatoli Banişevski də həmin qarşılaşmanın iştirakçısı olub. Oyunda yeganə qolu isə 2004-2006-cı illərdə ölkəmizdə "İnter"i çalışdırmış Anatoli Konkov vurub.

1986-cı ildə dünya çempionatındakı iştirakdan sonra Macarıstan futbolunda eniş yaşanıb. Nəticədə milli komanda 30 il böyük turnirlərin final mərhələlərindən kənarda qalıb. Macarlar artıq 40 ildir ki, mundiala vəsiqə qazana bilmirlər. Bunun əvəzində son üç Avropa çempionatına qatılıblar.

2018-ci ildə yaradılan UEFA Millətlər Liqasına C Liqasından başlayan Macarıstan millisi əvvəlcə B, oradan isə A Liqasına yüksəlməyi bacarıb. Ancaq turnirin son mövsümündə uğursuz çıxış yenidən B Liqasına düşməklə nəticələnib.

Hungary has a respectable football history. The national football team of Hungary won three Olympic title. The Hungarians won the gold medals in the Helsinki-1952, Tokyo-1964 and Mexico-1968 Summer Olympics. In 1972, Hungary became runner-ups in the Munich Olympics.

The Hungarian national team has also had notable successes in the FIFA World Cups and European Championships. The team first appeared in the 1934 FIFA World Cup in Italy and was among the winners of the FIFA World Cup four years later. Although the team advanced to the final of the 1938 FIFA Cup in France, but lost to Italy. The Hungarians are the silver medalists of the 1954 FIFA World Cup held in Switzerland. Hungary lost West Germany in the FIFA World Cup Final.

The European Championships in 1964 and 1972 were memorable for the Hungarians. The team was eliminated by the hosts in the semi-finals of the 1964 UEFA EURO in Spain. The Hungarian team beat Denmark in the third place match and won the bronze medals. The Hungarians were defeated by the USSR in the semi-finals of EURO-1972 in Belgium. The legendary Azerbaijani players Anatoly Banishevsky also played in that match. The only goal during the match was scored by Anatoly Konkov, who coached FC Inter in Azerbaijan in 2004-2006.

After the 1986 FIFA World Cup, Hungarian football went into decline. As a result, Hungary remained out of the final stages of major international tournaments for 30 years. The Hungarians have not qualified for the FIFA World Cup for 40 years. Instead, they have participated in the last three European Championships.

The UEFA Nations League was established in 2018 and the Hungarian national team, started to played in League C of the tournament and first managed to advance to League B and then to League A. However, an unsuccessful performance in the last season of the tournament resulted in relegation back to League B.









**Olimpiada, 1952 (Finlandiya, Helsinki)**
Olimpiya Futbol finalı. Macarıstan Yuqoslaviyanı 2:0 hesabı ilə məğlub edərək qızıl medal qazanıb

**Olympics, 1952 (Finland, Helsinki)**
The Olympic Football final. Hungary beat Yugoslavia 2-0 to win the gold medal

# MACARISTAN MİLLİSİNİN

## SON 5 YOLDAŞLIQ OYUNU

Last 5 friendly matches of the Hungary national team

| | | | |
|---|---|---|---|
| 10.09.2023 | Macarıstan - Çexiya | 1:1 | Budapeşt, Macarıstan |
| 22.03.2024 | Macarıstan - Türkiyə | 1:0 | Budapeşt, Macarıstan |
| 26.03.2024 | Macarıstan - Kosovo | 2:0 | Budapeşt, Macarıstan |
| 04.06.2024 | İrlandiya - Macarıstan | 2:1 | Dublin, İrlandiya |
| 08.06.2024 | Macarıstan - İsrail | 3:0 | Debretsen, Macarıstan |

## SON 5 RƏSMİ OYUNU

The last 5 official games of the Hungary national team

| | | | | |
|---|---|---|---|---|
| 14.10.2024 | UEFA Millətlər Liqası | Bosniya və Herseqovina - Macarıstan | 0:2 | Zenitsa, Bosniya və Herseqovina |
| 16.11.2024 | UEFA Millətlər Liqası | Niderland - Macarıstan | 4:0 | Amsterdam, Niderland |
| 19.11.2024 | UEFA Millətlər Liqası | Macarıstan - Almaniya | 1:1 | Budapeşt, Macarıstan |
| 20.03.2025 | UEFA Millətlər Liqası | Türkiyə - Macarıstan | 3:1 | İstanbul, Türkiyə |
| 23.03.2025 | UEFA Millətlər Liqası | Macarıstan – Türkiyə | 0:3 | Budapeşt, Macarıstan |

**HAZIRKI MÖVQEYİ:** *37-Cİ YER*
**ƏN YAXŞI MÖVQEYİ:** *18-Cİ YER (APREL-MAY 2016-CI İL)*
**ƏN ZƏİF MÖVQEYİ:** *87-Cİ YER (İYUL 1996-CI İL)*

**CURRENT POSITION:** *37TH PLACE*
**BEST POSITION:** *18TH (APRIL–MAY 2016)*
**LOWEST POSITION:** *87TH (JULY 1996)*

INSIDE FIFA


18
20
14

MƏLHƏM
BEYNƏLXALQ HOSPİTAL




# MƏLHƏMLƏ SAĞLAM YAŞA!

C.Naxçıvanski küç. 433 Bakı, 1099
803 / (+994) 51 201 71 01
melhemhospital.com

# ARALARINDAKI OYUNLAR HAQQINDA MƏLUMAT

# INFORMATION ABOUT THE MATCHES HELD BETWEEN THE TEAMS

# OYUNLAR
GAMES

Azərbaycan və Macarıstan milli komandaları indiyə qədər 7 dəfə qarşılaşıblar. Bunun yalnız 1-i yoldaşlıq görüşünə təsadüf edib. Həmin qarşılaşma isə neytral ölkədə - Birləşmiş Ərəb Əmirliklərində baş tutub.

Macarlarla ilk rəsmi duel 1996-cı ildə DÇ-1998-in seçmə mərhələsində olub. Baş tutan 7 matçın statistikasına nəzər yetirsək, rəqibin böyük üstünlüyə malik olduğunu görərik. Belə ki, Macarıstan yığması bütün görüşlərdə qələbə qazanmağa müvəffəq olub. Rəqibin 19 qoluna futbolçularımız 2 qolla qarşılıq verə biliblər.

Millimiz bu rəqibi ilə Bakıda 4-cü dəfə üz-üzə gələcək. Komandamız paytaxtımızda təşkil olunan əvvəlki 3 matçın ikisində 3, birində isə 4 qol buraxıb.

---

The national teams of Azerbaijan and Hungary have met 7 times so far. Only one of these matches was a friendly match. That match took place in a neutral country - the United Arab Emirates.

The first official matches against the Hungarians took place in 1996 within the 1998 FIFA World Cup qualifying round. If we look at the statistics of the 7 matches between the national teams of Azerbaijan and Hungary, we will see that the Hungarians has a huge advantage. The Hungarian national team won all these matches. The players of Azerbaijan A-team were able to respond with 2 goals to the opponent's 19 goals.

Azerbaijan will face Hungary for the fourth time in Baku. Azerbaijan A-team has conceded three goals in two of the previous three matches and four goals in one match.





## 1 DÇ-1998, seçmə mərhələ / 1998 FIFA World Cup, qualifying round

| | | |
|---|---|---|
| • 10.11.1996 | Azərbaycan – Macarıstan 0:3<br>(Bakı, Azərbaycan) | Azerbaijan vs Hungary 0-3<br>(Baku, Azerbaijan) |
| • 10.09.1997 | Macarıstan – Azərbaycan 3:1<br>(Budapeşt, Macarıstan)<br>⚽ Vyaçeslav Lıçkin, 71' | Hungary vs Azerbaijan 3-1<br>(Budapest, Hungary)<br>⚽ Vyacheslav Lychkin, 71' |

## 2 AVRO-2000, seçmə mərhələ

| | | |
|---|---|---|
| • 10.10.1998 | Azərbaycan – Macarıstan 0:4<br>(Bakı, Azərbaycan) | Azerbaijan vs Hungary 0-4<br>(Baku, Azerbaijan) |
| • 08.09.1999 | Macarıstan – Azərbaycan 3:0<br>(Budapeşt, Macarıstan) | Hungary vs Azerbaijan 3-0<br>(Budapest, Hungary) |

## 3 Yoldaşlıq oyunu

| | | |
|---|---|---|
| • 09.02.2011 | Azərbaycan - Macarıstan 0:2<br>(Dubay, Birləşmiş Ərəb Əmirlikləri) | Azerbaijan vs Hungary 0-2<br>(Dubai, UAE) |

## 4 AVRO-2020, seçmə mərhələ

| | | |
|---|---|---|
| • 08.06.2019 | Azərbaycan - Macarıstan 1:3<br>(Bakı, Azərbaycan)<br>⚽ Mahir Emreli, 69' | Azerbaijan vs Hungary 1-3<br>(Baku, Azerbaijan)<br>⚽ Mahir Emreli, 69' |
| • 13.10.2019 | Macarıstan - Azərbaycan 1:0<br>(Budapeşt, Macarıstan) | Hungary vs Azerbaijan 1-0<br>(Budapest, Hungary) |

PAŞA Sığorta

Rahatlığınıza Zəmanət

# MARAQLI FAKT
# INTERESTING FACT

DÇ-2022-nin seçmə mərhələsində müsabiqədənkənar iştirak edən Qətər yığması 2021-ci il martın 27-də millimizi məhz Macarıstanda qəbul edib. Görüş əvvəlcə Avstriyanın paytaxtı Vyanaya təyin olunub. Lakin sonradan yeri dəyişdirilib və qətərlilər millimizi Debretsendə qəbul ediblər. Həmin matçda meydan sahibləri 2:1 hesablı qələbə qazanıblar.

Millimiz ötən il Avstriyada təlim-məşq toplanışında olub. Lakin iki yoldaşlıq görüşünü Macarıstanda keçirib. İyunda Sombatxey şəhərində yerləşən "Haladas SportKomplexum"da təşkil olunan matçlarda komandamız Albaniya yığmasına 1:3 hesabı ilə uduzub, Qazaxıstan seçməsi üzərində isə 3:2 hesablı qələbə qazanıb.

Azərbaycan və Macarıstan futbolunu bir-birinə bağlayan məqam elə də çox olmayıb. Məsələn, azərbaycanlı futbolçular Macarıstanda legioner həyatı yaşamayıblar. Ancaq ölkəmizdən Macarıstana köçən bəzi oyunçular var. Yaxın keçmişə nəzər yetirsək, Kadi Borqes, Ovusu Kvabena, Julio Romao kimi legionelərlərin adıçəkilən ölkəyə yollandıqlarını görərik.

33 illik Azərbaycan çempionatları tarixində isə cəmi bir macar futbolçuya rast gəlinib. Bu, ötən mövsüm ölkəmizdə "Neftçi"nin formasını geyinmiş Mark Tamaşdır. 31 yaşlı müdafiəçi 2023/2024-cü illər mövsümündə "Neftçi"nin heyətində Premyer Liqada 24 oyunda iştirak edib.

The Qatari national team participated in the 2022 FIFA World Cup qualifying round out of the competition and hosted Azerbaijan national team in Hungary on March 27, 2021. The match was initially scheduled for Vienna, the capital of Austria. However, the venue was later changed and the Qataris hosted Azerbaijan in Debrecen. The host team won 2-1 that match.

Azerbaijan had a training camp in Austria in June last year. Azerbaijan national team played two friendly matches in Hungary during this camp. Azerbaijan lost the match against Albania 1-3 and beat Kazakhstan 3-2 in the matches held at the Haladas Sportkomplexum in Szombathely.

There are not many points that connect Azerbaijani and Hungarian footballs. For example, Azerbaijani players have not be foreigners in Hungary. However, there are some players who have moved from Azerbaijan to Hungary. If we look at the recent past, we will see that foreigners such as Kady Borges, Owusu Kwabena and Júlio Romão went to the aforementioned country.

In the 33-year history of the Azerbaijani championships, there has been only one Hungarian player. This is Mark Tamas, who played for FC Neftchi last season. The 31-year-old defender played 24 matches in the 2023/2024 season of Azerbaijan Premier League for FC Neftchi.




# MARK TAMAŞ

## Márk Tamás

"Azərbaycan millisində futbolçular bir-birilərini daha yaxşı tanıyırlar"
"The players of the Azerbaijan national team know each other better"

**AZE** AZƏRBAYCAN ÇEMPİONATLARI TARİXİNDƏ ÇIXIŞ ETMİŞ YEGANƏ MACARISTANLI FUTBOLÇU MARK TAMAŞDIR.

31 YAŞLI MÜDAFİƏÇİ 2023-CÜ İLİN YAYINDAN BU İLİN ƏVVƏLİNƏ QƏDƏR ÖLKƏMİZDƏ "NEFTÇİ"NİN FORMASINI GEYİNİB.

HAZIRDA RUMINİYANIN "SEPSİ" KLUBUNDA ÇIXIŞ EDƏN TAMAŞ 2021-Cİ İLDƏ MACARISTAN YIĞMASININ HEYƏTİNDƏ 1 OYUN KEÇİRİB. AFFA-NIN MƏTBUAT XİDMƏTİNƏ MÜSAHİBƏ VERƏN TƏCRÜBƏLİ FUTBOLÇU AZƏRBAYCAN VƏ MACARISTAN MİLLİLƏRİ ARASINDA KEÇİRİLƏCƏK YOLDAŞLIQ GÖRÜŞÜ BARƏDƏ FİKİRLƏRİNİ BİLDİRİB.

**- İyunun 10-da Azərbaycan və Macarıstan milli komandaları arasında yoldaşlıq görüşü keçiriləcək. Həmin görüşdən nə gözləyirsiniz?**

- Məncə, Macarıstan yığması bu matçda qələbə qazanacaq. Ancaq düşünürəm ki, bu, heç də asan olmayacaq. Yenə də seçmə mərhələyə yaxşı hazırlaşmaq baxımından Macarıstan millisi bu görüşdə qələbə qazanmalıdır.

**- Komandanız DÇ-2026-nın seçmə mərhələsində Portuqaliya, İrlandiya və Ermənistanla qarşılaşacaq. Azərbaycan millisi ilə oyun Macarıstan yığmasına nə qazandıra bilər?**

- Unutmayaq ki, bu, yoldaşlıq oyunudur. Baş məşqçi məhz belə qarşılaşmalarda nəyin yolunda getdiyini, nəyin düzgün edilmədiyini görə bilər. Çünki məşqçilər yoldaşlıq görüşlərində müxtəlif taktikanı, eləcə də, yeni oyunçuları sınaya bilirlər. Azərbaycanla oyun da qarşıdakı rəsmi matçlar öncəsi bəzi məqamları yoxlamaq baxımından yaxşı fürsətdir.

**- Ölkəmizdə çıxış etdiyiniz üçün Azərbaycan millisinin əksər futbolçularını tanıyırsınız. Sizcə, Azərbaycan millisinin güclü və zəif tərəfləri nələrdir?**

- Millinizin əksər oyunçuları daxili çempionatda çıxış edir və demək olar ki, eyni komandada oynayırlar. Belədə futbolçular bir-birilərini daha yaxşı tanıyırlar. Bu da Azərbaycan millisinin əsas üstünlüyüdür.

**- Macarıstanlı futbolçular millimizin heyətində ən çox kimdən çəkinməlidir?**

- Millinizə çağırılsalar, Emin Mahmudov və Mahir Emrelidən. Eminlə "Neftçi"də komanda yoldaşı olmuşam. Mahiri isə Polşadan tanıyıram. Mən 2020-2022-ci illərdə orada "Slask" klubunda çıxış edirdim. Mahir də həmin vaxt qısa müddət "Legiya"nın formasını geyinmişdi. Hər ikisi olduqca keyfiyyətli futbolçudur.

**- Bəs Macarıstan millisinin ən böyük üstünlüyü nədir və əsas "silah"ı hansı oyunçulardır?**

- Macarıstan yığması çox güclü kollektivdən formalaşıb. Əsas "silah"ları baş məşqçinin illərdir qurduğu komanda ruhudur. Əksər futbolçular Top-5 liqalarda çıxış edirlər. Həmçinin Dominik Soboslay kimi kapitanımız var.

**- 33 illik Azərbaycan çempionatında çıxış etmiş yeganə macar futbolçusunuz. Bunu bilirdiniz?**

- "Neftçi"də oynamağa başlayanda bu haqda

eşitmişdim. Bu statistika mənə çox maraqlı gəldi. Azərbaycan çempionatının yeganə macar futbolçusu olmaq qürurverici, sevindirici məqamdır.

**- Polşa, Rumıniya və Azərbaycanda legioner həyatı yaşamısınız. Bu ölkələri necə müqayisə edə bilərsiniz? Azərbaycanda keçirdiyiniz il yarımlıq vaxtı necə xatırlayırsınız?**

- Futbolçu üçün Polşa ən yüksək səviyyədir. Xüsusən də, azarkeşlərə və liqanın yüksək rəqabətli olmasına görə. Azərbaycandakı ilk ilim yaxşı keçdi. Son tura qədər ikinci yer uğrunda mübarizə apardıq. Amma son yarım il fəlakət idi. Düzünü desəm, "Neftçi" daha yaxşısına layiqdir.

**- Bakı sizdə necə təəssürat yaratdı?**

- Bakı möhtəşəm şəhərdir. Vaxtımız olanda hələ də dostlarımızı görmək üçün ora gəlirik. Ailəm də bir neçə həftə əvvəl Bakıda idi.

**- Azərbaycandan yeni təklif alsanız, cavabınız necə olar?**

- Bunu dəqiq bilmirəm. Çox məqamlar var. Amma şübhəsiz ki, bu barədə müsbət düşünürəm.

**ENG** - LET'S NOT FORGET THAT THIS IS JUST A FRIENDLY MATCH. HEAD COACH CAN SEE WHAT IS GOING WELL AND WHAT IS NOT DONE CORRECTLY AFTER SUCH GAMES. BECAUSE COACHES CAN TRY OUT DIFFERENT TACTICS AND NEW PLAYERS IN FRIENDLY MATCHES. THE GAME AGAINST AZERBAIJAN IS ALSO A GOOD OPPORTUNITY TO CHECK SOME POINTS BEFORE THE UPCOMING OFFICIAL MATCHES.

**- Since you have played in Azerbaijan, you know most of the players in Azerbaijan. What do you think are the strengths and weaknesses of Azerbaijan national team?**

- Most of the players of your national team play in the domestic championship and almost play for the same clubs. In this way, the players know each other better. This is the main advantage of Azerbaijan A-team.

**- Which of the Azerbaijan national team players should the Hungarians be wary of?**

- If they are called up to your national team, Emin Mahmudov and Mahir Emreli. I was teammates with Emin at Neftchi. I know Mahir from Poland. I played for Slask in 2020-2022. Mahir played for Legia for a short period at that time. Both are very high-quality players.

**- What is the biggest advantage of the Hungarian national team and which players are their main "weapon"?**

- Hungary is formed by a very strong team. The main "weapon" is the team spirit that head coach has built for years. Most of the players play in the Top-5 leagues. We also have a captain like Dominik Szoboszlai.

**- You are the only Hungarian to have played in the 33-year-old Azerbaijani championship. Did you know that?**

- I heard about it when I started playing for Neftchi. I found this statistic very interesting. It is a proud and happy moment to be the only Hungarian in the Azerbaijani championship.

**- You were a foreigner in Poland, Romania and Azerbaijan. How can you compare these countries? How do you remember the year and a half you spent in Azerbaijan?**

- Poland is the highest level for a football player. Especially because of the fans and the high competitiveness of the league. My first year in Azerbaijan was good. We fought for second place until the last round. But the last half a year was a disaster. To be honest, Neftchi deserves better.

**- What was your impression of Baku?**

- Baku is a wonderful city. We still come there to see our friends when we have time. My family was in Baku a few weeks ago.

**- What would be your response if you get a new offer from Azerbaijan?**

- I don't know for sure. There are many points. But I definitely think positively about it.



# ABOUT THE STADIUM
# STADİON HAQQINDA

**AZE** Millimizin Macarıstan yığması ilə qarşılaşacağı "Liv Bona Dea Arena" Bakının Mərdəkan qəsəbəsində yerləşir. 6 iyun 2011-ci ildə həmin dövrün FIFA və UEFA prezidentlərinin də iştirakı ilə açılış mərasımı keçirilib. Stadion 2012-ci ildə FIFA U-17 qadınlararası dünya çempionatı oyunlarının təşkil olunduğu məkanlardan biri olub. 6700 tamaşaçı tutumuna malik arenada bir çox klubumuz həm Premyer Liqa, həm də avrokuboklarda rəqiblərini qəbul ediblər. Hazırda "Araz-Naxçıvan" ev oyunlarını burada keçirir. A milli də daxil olmaqla, demək olar ki, bütün millilərimiz "Liv Bona Dea Arena"da istər yoldaşlıq, istərsə də rəsmi oyunlar keçirib.

**A millimizin "Liv Bona Dea Arena"da keçirdiyi bütün oyunlar:**

| | |
|---|---|
| Yoldaşlıq görüşləri<br>10.08.2011 / Azərbaycan – Makedoniya - 0:1<br>12.09.2023 / Azərbaycan - İordaniya - 2:1 | AÇ-2012, seçmə mərhələ<br>07.10.2011 / Azərbaycan – Avstriya - 1:4 |
| UEFA Millətlər Liqası, 2022/2023<br>10.06.2022 / Azərbaycan – Slovakiya – 0:1<br>13.06.2022 / Azərbaycan – Belarus – 2:0<br>25.09.2022 / Azərbaycan – Qazaxıstan – 3:0 | AÇ-2024, seçmə mərhələ<br>17.06.2023 / Azərbaycan - Estoniya - 1:1<br>09.09.2023 / Azərbaycan - Belçika - 0:1 |

**ENG** Liv Bona Dea Arena, where Azerbaijan will host Hungary, is located in Mardakan settlement of Baku. The opening ceremony was held on June 6, 2011, with the attendance of the then presidents of FIFA and UEFA. The stadium was one of the venues during the 2012 FIFA Under-17 Women's World Cup. The stadium has a capacity of 6500 people and many of football clubs in Azerbaijan have hosted their opponents in both the Premier League and European Championships at this stadium. Currently, FC Araz-Nakhchivan holds the home matches here. Almost all of Azerbaijan national teams, including the national A-team, have held both friendly and official matches at Liv Bona Dea Arena.

**All matches played by Azerbaijan at Liv Bona Dea Arena:**

| | |
|---|---|
| Friendly matches<br>10.08.2011 / Azerbaijan vs Macedonia – 0-1<br>12.09.2023 / Azerbaijan vs Jordan – 2-1 | UEFA EURO 2012, qualifying round<br>07.10.2011 / Azerbaijan vs Austria – 1-4 |
| UEFA Nations League, 2022/2023<br>10.06.2022 / Azerbaijan vs Slovakia – 0-1<br>13.06.2022 / Azerbaijan vs Belarus – 2-0<br>25.09.2022 / Azerbaijan vs Kazakhstan – 3-0 | UEFA EURO 2024, qualifying round<br>17.06.2023 / Azerbaijan vs Estonia – 1-1<br>09.09.2023 / Azerbaijan vs Belgium – 0-1 |

XIRDALAN 0.0

AFFA

MİLLİ KOMANDANIN ALKOQOLSUZ TƏRƏFDAŞI




0.0% ALKOQOL

100% AZƏRBAYCAN İSTEHSALI

18+ ALKOQOL: 0.0%. AQTA, QEYDİYYAT № / TARİXİ: 1808110029 / 11.08.2018.

AFFA

MAGYAR LABDARÚGÓ SZÖVETSÉG

1901

Azerbaijan national team




OYUN PROQRAMI
MATCHDAY PROGRAMME

# AZƏRBAYCAN MİLLİ KOMANDASI


SEKTOR 8

AZERBAIJAN
AIRLINES

# AQUAVITA

*Qafqaz dağlarından əfsanəvi su!*



silkway
west airlines

SOCAR

# FERNANDU SANTUŞ

**2014-cü ildə Yunanıstan millisindən ayrılaraq Portuqaliya yığmasına rəhbərlik etməyə başlayan Santuş ölkəsinin komandasına tarixi uğurlar qazandırıb.**

Fernandu Santuş 12 iyun 2024-cü il tarixində Azərbaycan milli komandasının baş məşqçisi təyin olunub. Portuqaliyalı dünyanın məşhur mütəxəssisləri arasında göstərilir. 14 illik peşəkar futbolçu karyerasının böyük hissəsini "Eştoril"ə həsr edən sabiq sol cinah müdafiəçisi 1988-ci ildə məşqçiliyə başlayıb. Ölkəsində "üç böyüklər" – "Porto", "Benfika" və "Sportinq"i çalışdırıb, birinci ilə bir dəfə ölkə çempionu olub, iki dəfə ölkə kubokunu, iki dəfə isə Superkubokunu qazanıb.

2010-cu ildə Yunanıstan millisinin "sükanı arxası"na keçib, komandanı AÇ-2012 və DÇ-2014-ün final mərhələsinə daşıyıb. Komanda Avropa çempionatında 1/4, dünya çempionatında isə 1/8 final mərhələsinə qədər irəliləyib.

2014-cü ildə Yunanıstan millisindən ayrılaraq Portuqaliya yığmasına rəhbərlik etməyə başlayan Santuş ölkəsinin komandasına tarixi uğurlar qazandırıb. Kriştianu Ronaldunun kapitanı olduğu kollektiv Santuşun rəhbərliyi altında 2016-cı ildə Avropa çempionatının, 2019-cu ildə isə UEFA Millətlər Liqasının qalibi olub. 2022-ci ildə sevimli komandasından ayrıldıqdan sonra qısa müddət Polşa yığmasını və Türkiyənin "Beşiktaş" klubunu çalışdırıb.

Millimiz 70 yaşlı mütəxəssisin rəhbərliyi altında UEFA Millətlər Liqasının 2024/2025 mövsümündə mübarizə aparıb.



# FERNANDO SANTOS

Fernando Santos was appointed the head coach of the Azerbaijan national team on June 12, 2024. The Portuguese specialist is listed among the famous experts of the world. The former left wing defender, who spent most of his 14-year professional football career with "Eshtoril", started coaching in 1988. He coached the "big three" in his country - "Porto", "Benfica" and "Sporting", in the first year, he became the national champion once, won the national cup twice, and the Supercup twice.



In 2010, he took charge of the Greek national team and led the team to the finals of the 2012 European Championship and the 2014 European Championship. The team reached the 1/4 final stage of the European Championship and the 1/8 final stage of the World Championship.

Santos, who left the Greek national team in 2014 to take over the Portuguese national team, has brought historic success to his country. The team, led by Cristiano Ronaldo and coached by Santos, won the European Championship in 2016 and the UEFA Nations League in 2019. After leaving his favorite team in 2022, he spent some time coaching the Polish national team and the Turkish club "Besiktas".

The Azerbaijan national team competed in the 2024/2025 UEFA Nations League under the leadership of a 70-year-old coach.



Santos, who left the Greek national team in 2014 to take over the

**PORTUGUESE NATIONAL TEAM**

has brought historic success to his country.

At this time, the team captain was

**CRISTIANO RONALDO.**

# AZƏRBAYCANDA FUTBOLUN YARANDIĞI İL

# 1905

## THE YEAR FOOTBALL WAS ESTABLISHED IN AZERBAIJAN



*1998 FIFA dünya çempionatı (seçmə mərhələ)*

*FIFA World Cup 1998 (qualifying round)*

Azərbaycanda ilk futbol komandaları 1905-ci ildə yaradılıb. Həmin dövrdə ingilislərin neft yataqlarına meyl etmələri futbolun inkişafına töhfəsini verib. Futbolun vətəni İngiltərə olduğundan, onların Bakıya gəlmələri yerli əhali arasında da bu idman növünü populyarlaşdırıb. Bakıda ilk futbol komandasının da adı "Britaniya klubu" olub. Bakının iri neft şirkətlərini təmsil edən komandalar arasında 1911-ci ildə Bakıda keçirilən birinci rəsmi çempionatı məhz "Britaniya klubu" qazanıb.

Adıçəkilən komanda ilk beynəlxalq oyununu 1912-ci ildə Gürcüstanda yerli "Sokol" kollektivinə qarşı keçirib və 4:2 hesablı qələbə qazanıb. 1914-cü ildə Bakı Futbol İttifaqı (BFİ) yaransa da, bu təşkilatın ömrü çox sürməyib. 20 komandanı özündə birləşdirən BFİ 1917-ci ildə süquta uğrayıb. 1920-ci ildə futbol yenidən Bakıya qayıdıb və ilk şəhər birinciliyinin qalibi "Sokol" olub. 1926-cı ildə Gürcüstanda təşkil edilən ilk Zaqafqaziya çempionatının qalibi Azərbaycan təmsilçisi "Proqress" olub.

The first football teams in Azerbaijan were created in 1905. At that time, the craving of the English people for oil fields contributed to the development of football. Since England is the birthplace of football, their arrival in Baku made this sport popular among the local population. The first football team in Baku was called the "British Club". Among the teams representing the largest oil companies in Baku, the first official championship, held in Baku in 1911, was won by the "British Club". This team played its first international game in 1912 in Georgia against the local team "Sokol" and won with a score of 4:2..

Although the Baku Football Union (BFU) was founded in 1914, the life of this organization did not last long. The BFU, which included 20 teams, disbanded in 1917. In 1920, football returned to Baku and the first city championship was won by "Sokol". The winner of the first Transcaucasian championship, organized in Georgia in 1926, was a representative of the Azerbaijani "Progress".

AFFA









# AZƏRBAYCAN MİLLİSİNİN REKORDÇULARI

## Record holders of the Azerbaijan national team

Azərbaycan millisinin ilk beynəlxalq oyunu 1992-ci il sentyabrın 17-də Gürcüstan seçməsinə qarşı olub. Gürcaanidə keçirilən görüşdə ev sahibləri 6:3 hesablı qələbə qazanıblar. Komandamızın ən böyükhesablı qələbəsi 4 top fərqi ilə olub. Millimiz 1999-cu ildə Lixtenşteynə 4:0, 2017-ci ildə isə San Marinoya 5:1 hesabı ilə qalib gəlib. Komandamız ən böyükhesablı məğlubiyyətini 1995-ci ildə səfərdə Fransadan alıb - 0:10.

The first international game of the Azerbaijani national team took place on September 17, 1992 against Georgia. In the match held in Georgia, the home team won with a score of 6-3. The Azerbaijani team's biggest victory was with a difference of 4 goals. Azerbaijan beat Liechtenstein 4-0 in 1999 and San Marino 5-1 in 2017. Azerbaijan suffered the biggest defeat in 1995 in an away match against France – 0-10.

Azərbaycan - San Marino, 4 Sentyabr 2017 5-1



## AZƏRBAYCAN MİLLİSINDƏ ƏN ÇOX OYUN KEÇİRƏN FUTBOLÇULAR / *PLAYERS WHO PLAYED THE MOST GAMES IN THE AZERBAIJAN NATIONAL TEAM*



**RƏŞAD SADIQOV**

111 oyun/games
2001-2017



**MAKSİM MEDVEDEV**

81 oyun/games
2009-2022



**ASLAN KƏRİMOV**

80 oyun/games
1994-2008



**KAMRAN AĞAYEV**

79 oyun/games
2008-2018



**BƏDAVİ HÜSEYNOV**

78 oyun/games
2012-...

## ƏN ÇOX QOL VURAN 5 FUTBOLÇU / *5 TOP SCORERS*



**QURBAN QURBANOV**

14 qol/goals
1992-2005



**EMİN MAHMUDOV**

14 qol/goals
2016-...



**RAMİL ŞEYDAYEV**

10 qol/goals
2016-...



**VAQİF CAVADOV**

9 qol/goals
2006-2014



**DMİTRİ NAZAROV**

8 qol/goals
2014-2022

DANILOV

BAKU

# AZƏRBAYCAN MİLLİSİNİN BEYNƏLXALQ YARIŞLARDA QƏLƏBƏLƏRİ

## SUCCESSES OF THE AZERBAIJAN NATIONAL TEAM DURING THE INTERNATIONAL COMPETITIONS

# Millinin beynəlxalq oyunlarda qələbələri

Dünya və Avropa çempionatlarının seçmə mərhələlərində, UEFA Millətlər Liqasında qazanılan qələbələr

# Victories of the national team in international matches

The victories achieved in the qualifying rounds of World and European championships, in the UEFA National League

**31.08.1996. DÇ-1998**
Azərbaycan - İsveçrə - 1:0 (Bakı)

**05.06.1999. AÇ-2000**
Azərbaycan - Lixtenşteyn - 4:0 (Bakı)

**05.06.2001. DÇ-2002**
Azərbaycan - Slovakiya - 2:0 (Bakı)

**11.06.2003. AÇ-2004**
Azərbaycan - Serbiya və Monteneqro - 2:1 (Bakı)

**28.03.2007. AÇ-2008**
Azərbaycan - Finlandiya - 1:0 (Bakı)

**10.10.2009. DÇ-2010**
Lixtenşteyn - Azərbaycan - 0:2 (Vaduts)

**12.10.2010. AÇ-2012**
Azərbaycan - Türkiyə - 1:0 (Bakı)

**06.09.2011. AÇ-2012**
Azərbaycan - Qazaxıstan - 3:2 (Bakı)

**11.10.2013. DÇ-2014**
Azərbaycan - Şimali İrlandiya - 2:0 (Bakı)

**28.03.2015. AÇ-2016**
Azərbaycan - Malta - 2:0 (Bakı)

**04.09.2016. DÇ-2018**
San Marino - Azərbaycan - 0:1 (Serravalle)
**08.09.2016. DÇ-2018**
Azərbaycan - Norveç - 1:0 (Bakı)

**04.09.2017. DÇ-2018**
Azərbaycan - San Marino - 5:1 (Bakı)

**11.10.2018. ML-2019**
Farer adaları - Azərbaycan - 0:3 (Torshavn)

**17.11.2018. ML-2019**
Azərbaycan - Farer adaları - 2:0 (Bakı)

**08.09.2020. ML-2021**
Kipr - Azərbaycan - 0:1 (Nikosiya)

**13.06.2022. ML-2023**
Azərbaycan - Belarus - 2:0 (Bakı)

**22.09.2022. ML-2023**
Slovakiya – Azərbaycan – 1:2 (Trnava)

**25.09.2022. ML-2023**
Azərbaycan – Qazaxıstan – 3:0 (Bakı)

**13.10.2023. AÇ-2024**
Estoniya – Azərbaycan – 0:2 (Tallin)

**16.11.2023. AÇ-2024**
Azərbaycan – İsveç – 3:0 (Bakı)







2-0 Azərbaycan - Belarus, Millətlər Liqası, 13 İyun 2022

n - İsveç, Avropa Çempionatı, 16 Noyabr 2023 3-0



# AZƏRBAYCAN MİLLİSİNİN HEYƏTİ

## QAPIÇILAR/GOALKEEPERS
Rza Cəfərov
Şahrudin Məhəmmədəliyev
Aydın Bayramov

## MÜDAFİƏÇİLƏR/DEFENDERS
Abbas Hüseynov
Mert Çelik
Bəhlul Mustafazadə
Bədavi Hüseynov
Zamiq Əliyev
Rəhman Daşdəmirov
Elvin Bədəlov
Elvin Cəfərquliyev
Cəlal Hüseynov

## YARIMMÜDAFİƏÇİLƏR/MIDFIELDERS
Səbuhi Abdullazadə
Ceyhun Nuriyev
İsmayıl İbrahimli
Rauf Rüstəmli
Şahin Şahniyarov
Emin Mahmudov
Anatoli Nuriyev
Toral Bayramov

## HÜCUMÇULAR/FORWARDS
Mahir Emreli
Nəriman Axundzadə
Xəyal Əliyev
Renat Dadaşov
Musa Qurbanlı



Azerbaijan national team squad

SOCAR

# MİLLİNİN SON 5 YOLDAŞLIQ OYUNU

## LAST 5 FRIENDLY MATCHES OF THE NATIONAL TEAM

| | | | | |
|---|---|---|---|---|
| 25.03.2024 | Yoldaşlıq görüşü | Azərbaycan - Bolqarıstan | 1 : 1 | Bakı, Azərbaycan |
| 07.06.2024 | Yoldaşlıq görüşü | Albaniya - Azərbaycan | 3 : 1 | Sombatxey, Macarıstan |
| 11.06.2024 | Yoldaşlıq görüşü | Azərbaycan - Qazaxıstan | 3 : 2 | Sombatxey, Macarıstan |
| 22.03.2025 | Yoldaşlıq görüşü | Azərbaycan - Haiti | 0 : 3 | Sumqayıt, Azərbaycan |
| 25.03.2025 | Yoldaşlıq görüşü | Azərbaycan - Belarus | 0 : 2 | Bakı, Azərbaycan |

# MİLLİNİN SON 5 RƏSMİ OYUNU

## LAST 5 OFFICIAL MATCHES OF THE NATIONAL TEAM

| | | | | |
|---|---|---|---|---|
| 08.09.2024 | UEFA Millətlər Liqası | Slovakiya – Azərbaycan | 2 : 0 | Koşitse, Slovakiya |
| 11.10.2024 | UEFA Millətlər Liqası | Estoniya – Azərbaycan | 3:1 | Tallin, Estoniya |
| 14.10.2024 | UEFA Millətlər Liqası | Azərbaycan – Slovakiya | 1:3 | Bakı, Azərbaycan |
| 16.11.2024 | UEFA Millətlər Liqası | Azərbaycan – Estoniya | 0:0 | Qəbələ, Azərbaycan |
| 19.11.2024 | UEFA Millətlər Liqası | İsveç – Azərbaycan | 6:0 | Solna, İsveç |

# MİLLİNİN FIFA REYTİNQİ

## FIFA RANKING OF THE NATIONA TEAM

**HAZIRKI MÖVQEYİ:** *119-CU YER*
**ƏN YAXŞI MÖVQEYİ:** *73-CÜ YER (İYUL 2014-CÜ İL)*
**ƏN ZƏİF MÖVQEYİ:** *170-Cİ YER (İYUN 1994-CÜ İL)*

**CURRENT POSITION:** *119TH PLACE*
**BEST POSITION:** *73RD PLACE (JULY 2014)*
**LOWEST POSITION:** *170TH (JUNE 1994)*

liv BONA DEA

liv BONA DEA

liv BONA DEA

# MÜNDƏRİCAT    CONTENT


| | | |
|---|---|---|
| *MACARISTAN MİLLİ KOMANDASI* | 4 | *HUNGARY NATIONAL TEAM* |
| MİLLİNİN BAŞ MƏŞQÇİSİ | 6 | ABOUT THE HEAD COACH |
| MİLLİNİN HEYƏTİ | 8 | ABOUT THE SQUAD |
| MACARISTANDA FUTBOLUN YARANDIĞI İL | 10 | THE YEAR FOOTBALL WAS ESTABLISHED IN HUNGARY |
| MİLLİNİN REKORDÇULARI | 12 | THE RECORD HOLDERS OF THE NATIONAL TEAM |
| MİLLİNİN BEYNƏLXALQ YARIŞLARDA UĞURLARI | 15 | NATIONAL TEAM'S SUCCESSES IN INTERNATIONAL COMPETITIONS |
| MİLLİNİN SON 5 OYUNU Və FIFA REYTİNQİ | 18 | LAST 5 MATCHES AND FIFA RANKING OF THE NATIONAL TEAM |
| *ARALARINDAKI OYUNLAR HAQQINDA MƏLUMAT* | 21 | *INFORMATION ABOUT THE MATCHES HELD BETWEEN THE TEAM* |
| *MARAQLI FAKT* | 25 | *INTERESTING FACT* |
| *MARK TAMAŞIN MÜSAHİBƏSİ* | 26 | *INTERVIEW OF MÁRK TAMÁS* |
| STADİON HAQQINDA | 28 | *ABOUT THE STADIUM* |
| *AZƏRBAYCAN MİLLİ KOMANDASI* | 32 | *IAZERBAIJAN NATIONAL TEAM* |
| MİLLİNİN BAŞ MƏŞQÇİSİ | 38 | ABOUT THE HEAD COACH |
| AZƏRBAYCANDA FUTBOLUN YARANDIĞI İL | 40 | THE YEAR FOOTBALL WAS ESTABLISHED IN AZERBAIJAN |
| MİLLİNİN REKORDÇULARI | 42 | THE RECORD HOLDERS OF THE NATIONAL TEAM |
| MİLLİNİN BEYNƏLXALQ YARIŞLARDA QƏLƏBƏLƏRİ | 45 | NATIONAL TEAM'S SUCCESSES IN INTERNATIONAL COMPETITIONS |
| MİLLİNİN HEYƏTİ | 48 | ABOUT THE SQUAD |
| MİLLİNİN SON 5 OYUNU Və FIFA REYTİNQİ | 50 | LAST 5 MATCHES AND FIFA RANKING OF THE NATIONAL TEAM |


AFFA